# GƏNCLƏRDƏ VƏTƏNDAŞLIQ VƏ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİN FORMALAŞDIRILMASI

***Azərbaycan Respublikasının ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi və onun gələcək inkişafına nail olunması sahəsində müasir gəncliyin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Respublikamızın əksər gəncləri vətənə qarşı öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər. Bununla belə təəssüflə qeyd edilməlidir ki, Qarabağ müharibəsində müvəqqəti uğursuzluqlarımızın mühüm səbəblərindən biri də bəzi gənclərdə vətənpərvərlik və milli ləyaqət hisslərinin aşağı səviyyədə olmasıdır. Vətənimizin 20 % torpağının işğal altında olduğu bir zamanda xalqımızın vətəni qorumağa qadir, mərd, sadiq gənclərə çox ehtiyacı vardır. Buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılması tələb olunur.***

***Vətənpərvərlik insanın öz Vətəninə sevgi və sədaqətliliyindən, onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməkdən, doğma Vətənin siyasi, iqtisadi və mənəvi tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə daim can atmaqdan ibarətdir.***

Vətənpərvərlik hissi şüurda vətən atributlarının dərk olunması maraqları baxımından böyük əhəmiyyət daşıyan məfhumlar toplusudur. Bundan başqa o, ərazi, coğrafi mühit, dil və s. kimi «dəyişməz» anlayışları və sosial-siyasi, mədəni, tarixi dəyərləri özündə əks etdirir.

Vətənpərvərlik hissi şəxsi maraqlar prizmasında formalaşan dəyərlər toplusu kimi üç mərhələni keçir: vətən dəyərlərinin əxz edilməsi; bu dəyərlər haqqındakı biliklərin inama, dəyərlər orientasiyasına çevrilməsi; bu inamın konkret fəaliyyətdə təzahürləri.

Vətənpərvərliyin iki səviyyəsi vardır. Birincisi vətən, onun tarixi, inkişafı və müdafiəsi haqqında empirik biliklər, vətənpərvər fikirlər, əhval-ruhiyyə, ənənələr, hisslər, emosiyalar, iradələrə malik olmaq, ikincisi vətənin tərəqqisi naminə vətənpərvər davranış normaları və konkret fəaliyyət.

Vətənpərvərlik tərbiyəsinin əsas məqsədi vətəndaşlıq borcunu yerinə yetirməyə can atan mənəvi, siyasi, professional, psixoloji və fiziki keyfiyyətlərə malik insan tərbiyə etməkdir.

İxtiyarı xalqın və ya millətin tarixində elə mərhələlər olur ki, vətənpərvərliyin tərkib hissəsi sayılan hərbi vətənpərvərlik məfhumu ön plana çıxır. Hərbi vətənpərvərlik dedikdə əsasən üç vacib element nəzərdə tutulur: *mənəvi-siyasi, hərbi-texniki və fiziki-psixoloji* hazırlıq. Bütövlükdə hərbi vətənpərvərlik tərbiyəsinin əsasını Vətən təəssübü, vətən anlayışının aliliyi, hərbi anda sədaqət, Vətənin mühafizəsinə hazırlıq, milli rəmzlərə hörmət meyarı təşkil edir.

Vətəndaşlıq hissi vətənpərvərliyin ən yüksək forması olub fərdin dövlət qarşısında öz hüquq və vəzifələrini başa düşməsidir. Vətəndaşlıq hissi olan şəxs öz ətrafında vətənin taleyi ilə bağlı baş verən hadisələrə fəal münasibət bəsləməli, vətənin tərəqqisi yolunda hadisələrin fəal iştirakçısına çevrilməlidir. Vətəndaşlığın ən birinci və ən əsas əlaməti fərdin davranışı əməli işidir.

Vətəndaşlıq psixoloji cəhətdən özünü hansı siyasi birliyin tam hüquqlu üzvü hiss etmək deməkdir. Vətəndaşlıq hissi olan insan dövlətin mənafeyini hər şeydən uca tutmalı, bu mənafe naminə özünü qurban verməyə hazır olmalıdır.

Vətəndaşlıq hissi şəxsiyyətin özünün milli məxsusluğuna, milli adətlərinə, dilinə, dininə, milli ədəbiyyatına, mədəniyyətinə, tarixinə, bu gününə, sabahına fəal həyat mövqeyi göstərməsidir. Vətəndaşlıq hissinin formalaşması gənclərin vətənin rifahı naminə çalışması, onların mənəvi keyfiyyətlərinin praktik davranışlarına çevrilməsinin əsas şərtidir.

İndiki tarixi mərhələdə Azərbaycan gənclərində vətənpərvərlik və vətəndaşlıq hisslərinin formalaşmasının əsas prinsipləri. Bu prinsiplər Azərbaycan üçün milli demokratik dövlət quruculuğu ilə sıx bağlılıqda olmalıdır. Vətənə məhəbbət hər şeydən əvvəl dövlət quruculuğunda fəal iştirakda ifadə olunmalıdır. Doğma yurda sədaqətlilik indiki çətinliklərdən qorxmayıb Vətəni tərk etməməyi nəzərdə tutmalıdır. Vətənin maraqlarını qorumaq istəyi müstəqilliyi və ərazi bütövlüyünü, millətin mənəvi və maddi dəyərlərini qorumaq kimi başa düşülməlidir. Bütün bunların mənəvi stimullaşdırıcısı isə Vətənin keçmiş və indiki tarixi haqqında obyektiv biliklərə əsaslanan qürur hissi olmalıdır.

Milli dövlətimizin yaranması ilə əlaqədar olaraq vətənpərvərlik anlayışı vətəndaşlıq borcuna əməl etmək kimi yeni məna kəsb edir. Vətəndaşlıq borcunun önəmli mənalarından biri də dövlət quruculuğu işində fəal mövqe tutmaqdan ibarətdir. Fəal iştirak bütövlükdə cəmiyyət tərəfindən müsbət qiymətləndirilən hər hansı fəaliyyət növünü nəzərdə tutur.

Müsbət sayılan hər hansı fəaliyyət növünün vətənpərvərlik kimi qiymətləndirilməsi bütün peşələrə eyni gözlə baxmaq hissi aşılayır. Bu isə öz növbəsində, birincisi, hər bir gəncdə peşə növlərinə qarşı ayrı-seçkilik hisslərinin yox olmasına, ikincisi, peşə seçimi azadlığını məhdudlaşdıran total çağırışlardan yaxa qurtarmağa xidmət edir. Şəxsiyyət baxımından bu prinsip gənclərdə seçmə hüququna malik olma kimi demokratik keyfiyyət tərbiyə edir.

Müstəqil demokratik dövlət quruculuğunda fəal iştirakın hüquqi, ictimai-siyasi və mənəvi tərəfi vardır. Hüquqi tərəf dövlətin qanunlarına hörmət əsasında ona əməl etməyi ifadə edir. Passiv insan ya qanunlardan qorxur, ya da onlara laqeyd münasibət göstərir. Ona görə də dövlət quruculuğuna münasibət dövlətin qanunlarına münasibətdən başlayır.

Fəal iştirakın ictimai-siyasi tərəfi ölkədə baş verən siyasi, iqtisadi, mədəni proseslərdən kənarda qalmamağı, hərbi mülkiyyətdən boyun qaçırmamağı və ekoloji təmizliyin bilavasitə iştirakçısı olmağı nəzərdə tutur.

Fəal iştirakın mənəvi tərəfi ana dilinə, milli adət-ənənələrə, vətənin və dünyanın mənəvi dəyərlərinə yiyələnməyi ifadə edir. Bu dəyərlərə yiyələnmək ölkədə baş verən proseslərə açıq gözlə baxmağa imkan verir. Milli adət-ənənələr insanda üzvü olduğu millətə sevgi oyadır.

Vətənpərvərliyin tərkib hissəsi kimi doğma yurda sədaqətlilik indiki tarixi mərhələdə Azərbaycan üçün böyük aktuallıq kəsb edir. Ölkənin müharibə vəziyyətində olması, iqtisadi çətinliklər bəzi insanların yurd-yuvalarını tərk etməsinə səbəb olmuşdur. O cümlədən, gənclərdən xarici ölkələrə həyat qurmağa gedənlər az deyil. Ümumiyyətlə, Azərbaycan vətəndaşlarında çətinliklərdən çıxış yolu kimi Vətəni tərk etmək meyli möhkəmlənsə çox faciələrlə üzləşməli olacağıq. O cümlədən, Dağlıq Qarabağı tərk etmiş insanların ora qaytarılması zamanı bir çox problemlər yaranacaq. Yəni Vətənə sədaqətlilik həm işğal olunmuş ərazilərə qayıtmaq, həm də ümumiyyətlə Azərbaycanı tərk etməmək konteksindən başa düşülməlidir. Doğma yurda sədaqətlilik onun təbii gözəlliyinə sentimental vurğunluq səviyyəsindən, torpağın hər qarışının qayğısını çəkmək və onun naminə çalışmaq səviyyəsinə keçməlidir.

Vətənə sədaqətlilik millətə və dövlətçiliyə sədaqətlilik kimi başa düşülməlidir. Yalnız öz yaxınlarını düşünən üçün «Harda olsam bir parça çörək yiyəsi olacağam» fəlsəfəsi dünyagörüşünün əsasını təşkil edir. Bu cür insanlar üçün peşə «çörək ağacı», işləmək isə «çörək pulu çıxarmaq» anlayışları ilə eyniləşir. Başqa sözlə, insan davranışının mənbəyində bu halda «mədə tələbatı» durur. Bu tip tələbat prizmasından millət və dövlətçilik elə bir əhəmiyyət kəsb etmir. Təəssüf ki, psixologiyamızda bu amil özünə yer edib. Ona görə də vətənə sədaqətlilik çox vaxt onun şəninə nəğmələr qoşmaq, şer yazmaq, tostlar söyləməklə məhdudlaşır.

Vətənpərvərliyin daha bir mühüm amili vətənin maraqlarını qorumaqdır. Müstəqilliyi qorumaq gənc üçün öz şəxsi azadlığını qorumaq deməkdir. Müstəqilliyi qorumaq Vətənin, millətin və dövlətin varlığını qorumaq deməkdir. Ona görə də hər bir gəncin davranışının fövqündə Azərbaycan durmalıdır. Müasir gəncliyin müstəqilliyə münasibəti bütövlükdə müsbətdir. Bununla belə iqtisadi sıxıntıların səbəbini müstəqillik qazanmaqla bağlayan düşmən ideologiyası və meşşan psixologiyası bir çox gənclərdə səhv təsəvvürlər yaradıb. Psixologiyadan bu təsəvvürlərin silinməsi çox vacib məsələlərdən biridir. *Ərazi bütövlüyünün qorunması müasir gənclərin vətənpərvərlik hissinin tarixi sınağıdır. Bu sınaqdan uğurla çıxmaq üçün gənclərə aşılanmalıdır ki, vətən torpağının hər qarışının işğalı xalqın keçmişinin, mənəviyyatının və əxlaqının işğalı deməkdir.*

***Həmzə Cəfərov,***
*tarix elmləri namizədi,*

***Kamran İsmayılov,***
*tarix elmləri namizədi*

*(davamı növbəti sayımızda)*